*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*

*ISSN: 2148-2292*
*12 (1) 2025*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:05.12.2024*
*Kabul tarihi |Accepted:18.02.2025*
*Yayın tarihi |Published:25.02.2025*

**Tarana Alivardiyeva**

***https://orcid.org/0009-0004-4354-673X***
*PhD, Baku State University, Department of History, Azerbaijan, taranaaliverdiyeva@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Alivardiyeva, T. (2025). Heydər Əliyevin Siyasi Kursunun Əsas Prioritetləri. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (1), 943-956. *https://doi.org/10.5281/zenodo.15629565*

# Heydər Əliyevin Siyasi Kursunun Əsas Prioritetləri

***Xülasə***

*Bu məqalədə Heydər Əliyevin siyasi kursunun əsas prioritetləri araşdırılır. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikasında həyata keçirilən ilk tədbirlərdən başlayaraq, onun ölkənin inkişafı üçün müəyyən etdiyi strateji hədəflərə geniş yer ayrılmışdır. Məqalədə, neft amili və enerji resurslarının Azərbaycanın iqtisadi potensialını artırmaq üçün strateji bir vasitə kimi necə istifadə edildiyi təhlil edilir. Eyni zamanda, Heydər Əliyevin multikultural dəyərlərin təşviqinə və ictimai birliyin təmin edilməsinə yönələn siyasəti ilə aqrar sektorda həyata keçirdiyi islahatların ölkənin davamlı inkişafına töhfələri incələnir. Bu istiqamətdəki siyasətlər, ölkənin iqtisadi sabitliyini gücləndirməklə yanaşı, milli maraqların qorunması və mədəni müxtəlifliyin təmin edilməsi məqsədini daşıyır. Məqalə, Heydər Əliyevin siyasi kursunun müxtəlif sahələrdəki təsirlərini hərtərəfli şəkildə dəyərləndirərək, Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafını təmin edən mühüm amilləri önə çıxarır.*

***Açar sözlər:*** *Heydər Əliyev, Siyasi Kurs, Neft Strategiyası, Multikulturalizm, Aqrar Islahatlar*

# Main Priorities of Heydar Aliyev's Political Course

***Abstract***

*This article analyses the main priorities of Heydar Aliyev's political course. Starting from the first measures implemented after Heydar Aliyev came to power in the Republic of Azerbaijan in 1993, the*

Creative Commons Licence BY NC

*strategic goals he set for the country's development are given extensive coverage. The article analyses how the oil factor and energy resources are used as a strategic tool to increase Azerbaijan's economic potential. At the same time, the contribution of Heydar Aliyev's reforms in the agricultural sector and his policy aimed at promoting multicultural values and social unity to the sustainable development of the country is analysed. Policies in this direction aim to strengthen the country's economic stability, protect national interests and ensure cultural diversity. The article comprehensively assesses the impact of Heydar Aliyev's political line in various fields and highlights the important factors that have contributed to the socio-economic and cultural development of Azerbaijan.*

***Keywords:*** *Heydar Aliyev, Political Course, Oil Strategy, Multiculturalism, Agrarian Reforms*

## Giriş

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda siyasi və sosial sabitliyin təmin edilməsi, dövlətin əsas funksiyalarının yenidən qurulması və ölkənin dayanıqlı inkişafının təmin edilməsi məqsədilə çoxşaxəli və sistemli islahatlar həyata keçirildi. Ölkədə sabitlik və inkişafın təməllərini qoymaq üçün Heydər Əliyev iqtisadi, siyasi və sosial sahələrdə dərin islahatlar başlatdı və strateji yanaşmalar tətbiq etdi. Bu islahatlar Azərbaycanın iqtisadi potensialının gücləndirilməsi, milli maraqların qorunması, multikultural dəyərlərin möhkəmləndirilməsi, aqrar sektorun canlandırılması və dövlət idarəçiliyinin effektivliyinin artırılması kimi mühüm sahələri əhatə edirdi. Onun həyata keçirdiyi tədbirlər Azərbaycanı daha təhlükəsiz, dinamik və dayanıqlı bir siyasi və iqtisadi sistemə doğru irəli apardı. Birincisi, iqtisadi islahatlar çərçivəsində Azərbaycanın öz iqtisadi resurslarına dayanan və xarici asılılığı azaltmağa yönəlmiş siyasət həyata keçirildi. Heydər Əliyevin rəhbərliyi altında neft və qaz sektoru prioritet sahələrdən biri kimi seçildi və "Əsrin müqaviləsi" kimi mühüm enerji müqavilələri imzalandı. Bu müqavilələr Azərbaycanın iqtisadi suverenliyini və xarici investorların etibarını artıraraq ölkəyə əhəmiyyətli miqdarda xarici sərmayə cəlb etdi. Neft gəlirlərinin iqtisadiyyatın digər sahələrinin inkişafına yönəldilməsi ilə sənaye, kənd təsərrüfatı və xidmət sektorları canlandırıldı ki, bu da Azərbaycanın dayanıqlı inkişafına ciddi töhfə verdi. İkincisi, milli maraqların qorunması Heydər Əliyevin xarici siyasətinin əsas prioritetlərindən biri idi. O, Azərbaycanın dövlət müstəqilliyini təmin edən çoxvektorlu xarici siyasət kursunu əsas götürərək, ölkənin qlobal siyasi və iqtisadi əlaqələr sistemində layiqli yer tutması üçün mühüm addımlar atdı. Heydər Əliyev regional və beynəlxalq güc mərkəzləri ilə balanslı münasibətlər qurmaqla Azərbaycanın təhlükəsizliyini və suverenliyini qorumaq məqsədini güdürdü. Xüsusilə ABŞ, Avropa İttifaqı, Türkiyə, Rusiya və qonşu ölkələrlə strateji əlaqələr quraraq Azərbaycanın geosiyasi mövqeyini möhkəmləndirdi və Ermənistanın

təcavüzkar siyasətinə qarşı beynəlxalq dəstəyi gücləndirdi. Üçüncüsü, Azərbaycanda multikultural dəyərlərin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən bu siyasət Azərbaycanın tarixi irsini qorumaqla yanaşı, ölkədə yaşayan müxtəlif etnik və dini qrupların birgəyaşayışına əsaslanan cəmiyyətin formalaşdırılmasına yönəlmişdi. Multikulturalizm prinsipləri əsasında qurulan bu siyasət Azərbaycanın daxili stabilliyini artırmaqla yanaşı, ölkəni beynəlxalq aləmdə tolerantlıq və birgəyaşayışın nümunəsi kimi tanıtdı. Bu da Azərbaycanın sosial strukturunu gücləndirərək, daxili harmoniya və vətəndaş həmrəyliyini inkişaf etdirdi.

## 1. Heydər Əliyevin Hakimiyyətə Qayıdışından Sonra ilk Tədbirlər

Ermənistanın Azərbaycana qarşı apardığı müharibə və ölkənin mürəkkəb geosiyasi vəziyyəti, regional güc mərkəzlərindən qaynaqlanan siyasi-ideoloji, hərbi və iqtisadi təhdidlərə baxmayaraq, Heydər Əliyevin xarici siyasəti Azərbaycanı beynəlxalq münasibətlər sistemində layiqli yerə qaldırdı. Onun xarici siyasət kursu praqmatik yanaşma, məntiq və rasional baxış üzərində qurulmuş, risk və avantürizmdən uzaq idi. Bu yanaşma Azərbaycanın qlobal miqyasda təhlükəsizliyini möhkəmləndirmək və müstəqilliyini qorumaq baxımından böyük əhəmiyyət kəsb edirdi.

1993-2003-cü illər ərzində Heydər Əliyevin həyata keçirdiyi xarici siyasət kursunu strateji bir yanaşma olaraq dəyərləndirmək olar. O, bu siyasəti obyektiv və subyektiv amilləri nəzərə alaraq, Azərbaycan xalqının milli maraqlarına uyğun formada həyata keçirdi. Ölkənin müstəqilliyinin qorunması, regional təhlükələrin neytrallaşdırılması, dövlət maraqlarının təbliği və beynəlxalq müstəvidə mövqelərin möhkəmləndirilməsi Heydər Əliyevin xarici siyasətinin əsas prioritetləri idi. Azərbaycanın beynəlxalq təşkilatlara inteqrasiyası, ərazi bütövlüyünün təmin edilməsi və erməni təcavüzünün qarşısının alınması da bu strategiyanın mühüm istiqamətlərini təşkil edirdi. Regional güc mərkəzləri ilə dostluq münasibətlərinin qurulması, qlobal və regional təhlükəsizlik sistemlərinin yaradılması və beynəlxalq əməkdaşlıq Heydər Əliyevin xarici siyasətinin uzunmüddətli məqsədləri olaraq qalmışdır. Bu baxımdan, Heydər Əliyevin xarici siyasəti Azərbaycanın müasir siyasi kontekstində və beynəlxalq əlaqələr sistemində önəmli bir yer tutur. Azərbaycanın xarici iqtisadi və siyasi əlaqələrinin möhkəmləndirilməsi və qlobal inteqrasiya proseslərində daha fəal iştirak etməsi ilə bu siyasət ölkənin dayanıqlı inkişafına əsaslı töhfə verməkdədir.

Heydər Əliyev beynəlxalq münasibətlər sistemində xalqımızı və dövlətimizin mənafeyini qorumaq üçün xarici siyasətin həyata keçirilməsində əsas vasitələrdən biri olan diplomatiyadan qeyri-adi məharətlə istifadə edirdi. Burada qeyd etmək yerinə düşər ki, onun diplomatiyasının dörd əsas vəzifəsi var idi: 1) diplomatiya bu məqsədlərə çatmaq üçün mövcud və potensial qüvvələri nəzərə almaqla öz məqsədlərini müəyyən etməlidir; 2) diplomatiya digər dövlətlərin məqsədlərini və bu məqsədlərə nail olmaq üçün mövcud olan potensial gücü qiymətləndirməlidir; 3) diplomatiya bu müxtəlif məqsədlərin bir-birinə nə dərəcədə uyğun olduğunu müəyyən etməlidir; 4) diplomatiya məqsədlərinə çatmaq üçün ən uyğun üsullardan istifadə etməlidir. Heydər Əliyevin xarici siyasətini inkişaf etdirmək üçün diplomatiyadan məharətlə istifadə etməsi onu göstərir ki, dövlət başçısı diplomatiyanın dörd "qızıl qaydasına" ciddi əməl edirdi. Heydər Əliyevin düşünülmüş diplomatiyası və praqmatik xarici siyasəti sayəsində Azərbaycanla regionda geostrateji maraqları tez-tez toqquşan aparıcı dövlətlər arasında münasibətlərin qurulması və normallaşdırılması mümkün olmuşdur.

## 2. Heydər Əliyevin Siyasi Kursunda Neft Amili

Heydər Əliyevin Azərbaycan dövlətinin dirçəldilməsində apardığı siyasətin ən önəmli aspektlərindən biri də neft strategiyasının reallaşdırılması idi. Belə ki, Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqillik əldə etdiyi andan Xəzər dənizində neft yataqlarının işlənməsinə dair müəyyən fəaliyyətlərə start verilmişdi. Bu fəaliyyətlərin mahiyyəti Azərbaycanın neft ehtiyatlarının işlənməsinə Qərb kapitalını cəlb etməkdən ibarət idi. Bu fikir 1991-ci il yanvarın 18-də Xəzər dənizinin neft sənayesinin öyrənilməsi və işlənməsi üçün tenderin keçirilməsi haqqında qərar qəbul etdikdə yaranmışdı (Bəhramov, 2019). Həmin ilin iyun ayında tenderdə Kaspmorneft ilə birgə müəssisə yaratmalı olan Amerikanın Amoco şirkəti qalib gəlmişdi (Andriyanov & Miralamov, 2007). Lakin Azərbaycanda AXC-nin hakimiyyətə gəlməsi, Ermənistanın Dağlıq Qarabağ və ətraf rayonları işğal etməsi, Rusiya ilə artan ziddiyyətlər, ümumi iqtisadi böhran buna imkan vermədi.

Heydər Əliyev bu layihələri sistemli dövlət strategiyası halına gətirərək "neft diplomatiyası" adlanan üsuldan istifadə etməklə ölkədə vəziyyəti sabitləşdirməyə çalışırdı. Onun mahiyyəti Xəzərin "qara qızılı"nın hasilatı və təhlükəsiz daşınması məsələsini qlobal səviyyəyə çatdırmaqdan ibarət idi. Bu dövrdə ölkənin suverenliyinin möhkəmləndirilməsi, beynəlxalq reytinqinin yüksəldilməsi, eləcə də daxili inkişafa təkan verə biləcək sosial-iqtisadi islahatların aparılması bu strategiyanın nə dərəcədə uğurlu olacağından asılı idi. Üç yatağın - "Günəşli", "Azəri" və "Çıraq"ın işlənməsində nizamnamə kapitalının 50%-nə xarici firmaların sahib olacağı güman edilirdi, həm

konsorsiumda, həm də ixrac neft kəmərinin marşrutu müəyyən edilərkən Azərbaycanın milli maraqları nəzərə alınırdı. Bu layihədə aparıcı rol British Petroleum və Statoil alyansına məxsus idi. Artıq Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 1992-ci il tarixli Fərmanı ilə "Azərineft" Dövlət Konserni və "Azərnefkimya" İstehsalat Birliyininin bazasında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti yaradılmışdır. Neft müqaviləsinin bağlanması ilə bağlı bütün danışıqları Heydər Əliyev şəxsi nəzarətinə götürdü. O, çox gözəl başa düşürdü ki, etibarlılığı otuz il müddətinə hesablanan çoxmilyonluq strateji əməliyyatların hazırlanması son dərəcə məsuliyyətli və çətin bir işdir. Üstəlik, bu prosesdə iştirak edən insanlar təkcə peşəkarlar deyil, həm də böyük ölçüdə vətənpərvər olmalı, imzalanan müqavilələrin ölkənin gələcəyi üçün əhəmiyyətini dərk etməlidirlər. Azərbaycanın ABŞ-dakı ilk səfiri Hafiz Paşayev qeyd edir ki, o vaxt Azərbaycanda lazımi səviyyədə hazırlanmış mütəxəssislər çox az idi.

Azərbaycanın yeni neft strategiyası ölkənin bütün həyati əhəmiyyətli sahələrdə sürətlə inkişaf edən ölkəyə çevrilməsində, milli təhlükəsizlik maraqlarının təmini baxımından beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsində müstəsna rol oynamışdır. Əsası sosial-iqtisadi yüksəlişə, transmilli enerji və kommunikasiya layihələrinin həyata keçirilməsinə real zəmin yaradan "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulan bu uğurlu strategiya Azərbaycanın müasir tarixinin ən şərəfli səhifələrindən biridir. Bununla Azərbaycanın neft siyasətinin reallaşdırılmasına başlanılmışdır.

Heydər Əliyev 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış müqaviləni həm iqtisadi, həm də siyasi amilləri özündə birləşdirən bütün dünyada bir nömrəli hadisəyə çevirə bildi. Müqavilənin imzalanması Azərbaycanı beynəlxalq miqyasda aparıcı dövlətlərin etibarlı tərəfdaşına çevirdi (Yusifzadə, 2023). Bir neçə il ərzində məlum oldu ki, bu müqavilə təkcə iqtisadi xarakter daşımayıb və onun həyata keçirilməsi ilə bütün dünyada bir ölkə kimi Azərbaycanın perspektiv imkanlarından istifadə etməyə nail oldu. Bu tarixi hadisəni şərh edən Azərbaycan Respublikasının Prezidenti İ. Əliyev vurğulamışdır ki, müasir dünyada neft təkcə məqsəd deyil, həm də iqtisadi və siyasi xarakterli qlobal problemlərin həlli vasitələrindən biridir. Məhz bu vasitə Azərbaycanı heç kimdən asılı olmayan bir ölkəyə çevirdi. Heydər Əliyev "Əsrin müqaviləsi"nin imzalanması mərasimində vurğulamışdı ki, biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərpa olunduğunu bütün dünyaya bir daha nümayiş etdirdik, eyni zamanda, göstərdik ki, xalqımızın özü milli sərvətlərinin sahibdir (Aliyev, 2007). Əgər müqavilənin

imzalanması o dövr üçün onsuz da çox gərgin proses idisə, bu müqavilənin imzalanmasından sonrakı hadisələr daha da gərginləşən, düşmən qüvvələrinin dövlətçiliyimizə qarşı yönəlmiş hiylələrinin yeni müstəviyə keçməsi fonunda inkişaf etdi. Eyni zamanda, ötən illər ərzində balanslaşdırılmış siyasət sayəsində həm daxildə, həm də xaricdə bu cür qüvvələrin avantürist istəkləri məharətlə puça çıxdı, Azərbaycanın fayda və mənafeləri uzun bir tarixi dövr ərzində bütün dünya tərəfindən qəbul edildi. Məlumdur ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Xəzər regionunda strateji və iqtisadi maraqlarının təmin edilməsində, eləcə də təbii sərvətlərindən səmərəli istifadə olunmasında ciddi problemlərlə üzləşmişdir. Yalnız ölkə daxilində möhkəm qanunçuluq prinsiplərinə əsaslanan siyasi sabitlik bərqərar olduqdan sonra yeni neft strategiyasının hazırlanması və həyata keçirilməsi üçün zəmin yaratmaq mümkün oldu.

Ölkə rəhbərliyi ölkəmizin qüdrətli dövlətə çevrilməsi üçün təbii sərvətlərindən səmərəli istifadə etməyi son dərəcə vacib hesab edərək, yeni neft strategiyasının hazırlanması və onun uğurla həyata keçirilməsi istiqamətində əzmlə çalışmışdır. Məhz bu səbəbdən Azərbaycanın zəngin neft və qaz yataqlarını işlətməsinin və bu təbii sərvətlərin Qərb bazarlarına çatdırılmasının yolları düzgün qiymətləndirilmişdir (Milli dövlətçilik sınaq qarşısında, 2002). Azərbaycana təzyiqlərin artması fonunda bu danışıqların davam etdirilməsi ölkə rəhbərliyindən ciddi siyasi iradə və əzmkarlıq tələb edirdi. Rusiya və İran Azərbaycana təzyiq edirdilər. Heydər Əliyev aparıcı Qərb şirkətlərini bu müqavilənin önəminə inandıra bildi. Nəhayət, 1994-cü il sentyabrın 20-də Bakıda 11 transmilli korporasiyanın iştirakı ilə müasir tarixə "Əsrin müqaviləsi" adı ilə daxil olan neft müqaviləsinin təntənəli imzalanması mərasimi oldu. Bununla da Heydər Əliyev o dövrün sosial-iqtisadi şəraitində böyük siyasi iradə və dəqiq iqtisadi hesablamalar nümayiş etdirərək Azərbaycan üçün yeni neft strategiyasını irəli sürdü. 1994-cü ildən başlayaraq Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirməyə başladı. Bu strategiyanın əsas mənası, mahiyyəti və prinsipləri ölkənin təbii sərvətlərindən, o cümlədən neft və qaz yataqlarından Azərbaycan xalqının rifahı naminə səmərəli istifadə etməkdir.

Qeyd edilən dövrdə SOCAR-ın vitse-prezidenti vəzifəsini tutan İ.Əliyev bu danışıqları uğurla başa çatdırdı. Bütün çətinliklər aradan qaldırıldı, neft müqavilələrində ölkənin milli maraqları ən yüksək səviyyədə qorundu. İlham Əliyev vurğulayırdı ki, danışıqlar zamanı bəzən böhranlı məqamlar yaranırdı və Azərbaycan tərəfi danışıqları başa çatdırmağa çox yaxın idi, çünki biz hesab edirdik ki, bəzi şərtlər qəbuledilməzdir. İlham Əliyev Heydər Əliyev strategiyasını reallaşdırarkın ölkəmizin milli maraqlarını güdür və milli mənafelərimizə zidd olan məqamlarla razılaşa bilmirdi.

Azərbaycanın iqtisadi müstəqilliyinin məhək daşına çevrilən "Əsrin müqaviləsi" azad iqtisadi mexanizmlərdən istifadəni və dünya iqtisadiyyatına dinamik inteqrasiyanı, yeni iş yerlərinin açılmasını təmin etmiş, respublikaya investisiya axınını sürətləndirmişdir. Bu saziş dünyanın ən böyük enerji layihəsinin həyata keçirilməsini təmin etməklə yanaşı, həm də ölkəmizin ciddi elmi prinsiplərə əsaslanan sosial-iqtisadi inkişaf strategiyasının əsasını qoydu, davamlı daxili sabitliyə real zəmin yaratdı, dövlətin beynəlxalq arenada milli təhlükəsizlik və iqtisadi maraqlarını təmin etdi.

Regionda digər qlobal enerji və kommunikasiya layihələrinin həyata keçirilməsi baxımından böyük addımlar atıldı. Bu proses eyni zamanda Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərini yeni strateji müstəviyə çıxardı. Müstəqil respublikamız Cənubi Qafqazda sülhün, sabitliyin, iqtisadi tərəqqinin və inkişafın qarantına çevrildi. İndiyədək xarici şirkətlərlə bağlanmış neft-qaz müqavilələri iqtisadiyyatın digər sahələrinin inkişafına, sosial və sənaye infrastrukturunun inkişafına zəmin yaratmışdır. "Əsrin müqaviləsi"nin imzalanmasından sonra danışıqlarda mübahisəli və uzun müddət müzakirə olunan mövzulardan biri də hasil edilən milyonlarla ton xam nefti Azərbaycana çatdırmalı olan boru kəmərlərinin hansı ölkələrə keçməsi məsələsi idi. İlk günlərdən bu məsələ ilə bağlı müxtəlif fikirlər, təkliflər irəli sürüldü. Heydər Əliyevin dəmir iradəsi və qətiyyətli mövqeyi, habelə danışıqlarda nümayiş etdirdiyi diplomatik məharəti Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında Azərbaycan neftinin Bakı-Novorossiysk xətti nəqli haqqında hökumətlərarası sazişin imzalanmasını təmin etdi.

Azərbaycan neftinin bu xətt üzrə nəqlinə 1997-ci ilin oktyabrında başlanıldı. Geostrateji amillərə görə çoxlu ixrac boru kəməri variantlarına ehtiyac alternativ variantlar üzərində gərgin iş tələb edirdi. 1997-ci ildə Azərbaycan, Gürcüstan və Ukrayna hökumətləri arasında Azərbaycan neftinin Bakı-Tbilisi-Supsa marşrutu ilə Qara dənizə nəqli haqqında saziş imzalandı. 1997-ci il aprelin 17-də müstəqil Azərbaycanın tarixində daha bir əlamətdar hadisə baş verdi, uzunluğu 850 km olan, ildə 5 milyon ton ötürmə qabiliyyətinə malik Bakı-Supsa neft kəməri, eləcə də ixrac terminalı istifadəyə verildi. Lakin bu boru kəmərləri ekstensiv nəqli tam təmin edə bilmədi. Buna görə də, Bakı-Tbilisi-Ceyhan kəməri ideyasını ilk dəfə Heydər Əliyev hələ ötən əsrin 90-cı illərinin ortalarında gündəmə gətirmişdi. "Əsrin müqaviləsi" imzalanandan sonra bu kəmərin tərəfdarlarının sayının az olması səbəbindən onun həyata keçirilməsi çoxlarına mif kimi göründü. Lakin buna baxmayaraq, Heydər Əliyev "Əsrin müqaviləsi"nin imzalanmasında iştirak edən

şirkətlərin və onların təmsil olunduğu dövlətlərin nümayəndələrini bu kəmərin önəmli olmasına inandıra bildi.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin iqtisadi baxımdan nisbi baha olmasına baxmayaraq, ölkə rəhbərliyi strateji və siyasi baxımdan onun optimallığını sübut etdi. 1998-ci il oktyabrın 29-da Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri BTC-nin tikintisi haqqında saziş imzaladılar (Yaqubzadə, 2024). 1998-ci il noyabrın 18-də ATƏT-in İstanbul sammitində Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə Azərbaycan neftinin nəqli haqqında razılaşma əldə edilmişdir. ABŞ və Qazaxıstanın dövlət başçıları da bu sazişi imzalayaraq öz üzərinə müəyyən hüquqi və siyasi öhdəliklər götürdülər. BTC-nin yaranması "Əsrin müqaviləsi"nin imzalanmasından sonra ikinci tarixi əhəmiyyətli hadisə idi. 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimi keçirildi. Bu mərasim ölkə rəhbərliyinin uğurlu neft strategiyasının əməli nəticəsi idi (Əliyev, 2013).

### 3. Heydər Əliyevin Siyasi Kursunda Multikultural Dəyərlər

Ölkədə siyasi və sosial vəziyyətin yaxşılaşdırılması istiqamətində atılan önəmli addımlardan biri də multikultural dəyərlərin bərpası idi. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin siyasəti tolerantlıq və multikulturalizm ənənələrinin tezliklə bərpasını təmin etdi. Müdrik və balanslaşdırılmış konsepsiya sayəsində müxtəliflik ənənələrinin qorunması ölkənin əsas prioritetlərindən birinə çevrildi. Multikultural dəyərlərin mühafizəsi Ümummilli Lider Heydər Əliyevin siyasətinin əsaslarından idi (Aran, 2023). Azərbaycan sübut etdi ki, mədəni plüralizm bir fenomen kimi mühüm və əvəzolunmaz alqoritmdir ki, onun köməyi ilə xalqlar bir-biri ilə əməkdaşlıqda uğur qazanırlar. Bu, təlatümlü dünyada münaqişəsiz yaşamaq əzmində olan Azərbaycanın uğurlarının açarlarından biridir. Cəmiyyət bu cür düzgün yanaşmanı nəinki yüksək qiymətləndirir, hətta onu dəstəkləyir, çünki sabitliyin açarı həmişə qarşılıqlı anlaşma, açıqlıq və dialoq olub və qalacaqdır. Bu da Azərbaycanın milli siyasətinin patriarxı Heydər Əliyevin yüksək qiymətləndirdiyi və öz siyasəti ilə dəstəklədiyi bir məsələdir. Dövlət müstəqilliyini əldə etdikdən sonra gənc ölkənin qorunub saxlanılmasında və onun yeni inkişaf mərhələsinə yüksəlməsində Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Azərbaycan kimi kiçik, lakin öz tarixi, mənəvi, əxlaqi və milli dəyərlərinə, adət-ənənələrinə malik bir ölkənin təməlində məhz tolerantlıq və multikulturalizm dayanırdı. Ümummilli lider Heydər Əliyev multikulturalizmin Azərbaycan modelinin siyasi əsaslarını yaratdı. Bu istiqamətdə mühüm sənədlər müzakirə edilərək qəbul edildi. Onların arasında həyatın bütün sahələrində, hüquqi, dünyəvi və demokratik dövlət quruculuğunda

əsaslı islahatlara yol açan Azərbaycan Respublikasının Konstitusiyası var. Heydər Əliyev Konstitusiyanın qəbulunun tarixi əhəmiyyətini aydın görürdü.

Heydər Əliyevin irəli sürdüyü "Azərbaycan bütün azərbaycanlıların vətənidir" şüarı respublikamızın əsas ictimai-siyasi rəmzlərindən biri idi. Heydər Əliyevin sayəsində azərbaycançılıq məfkurəsi ictimai şüura ahəngdar şəkildə oturdu və Azərbaycan xalqının birliyini, özünəməxsusluğunu və bənzərsizliyini simvolizə edən həyata möhkəm bir şəkildə daxil oldu. Heydər Əliyevin siyasəti çətin 1990-cı illərdə Azərbaycan cəmiyyətində davamlı harmoniya və tarazlığın möhkəmlənməsinə yönəlmişdi. Onun rəhbərliyi ilə inkişaf etdirilən azərbaycançılıq prinsipləri Konstitusiyanın siyasi sənədlərində, maddələrində öz əksini tapmışdır. "Azərbaycanda yaşayan hər bir xalqın mənəvi dəyərləri Azərbaycanın ümumi irsidir" şüarını bəyan edən Heydər Əliyev bununla da praktiki olaraq Azərbaycan reallığının bütün dövrlər üçün müəyyənedici və səciyyəvi portretini yaratmışdır.

Ümummilli lider Heydər Əliyev Atatürkün "Yurdda sülh cahanda sülh" fikrini əsas gətirən parlaq kəlamını xatırladaraq demişdir ki, Azərbaycan xalqının özünəməxsusluğu və orijinallığı ilə birgə yaşadığı xalqların tarixi talеləri ilə birləşmişdir. Belə ki, Azərbaycan multikulturalizmi təcrübəsinin geniş yayılması və təkmilləşdirilməsi ideyası hələ milli müstəqilliyimizin ilk illərində ümummilli lider tərəfindən irəli sürülmüşdür. Heydər Əliyev mövcud olan ən yaxşı ümumbəşəri prinsiplərin həyata keçirilməsinə çağırırdı: millətlərin və xalqların bərabərliyi, onların ərazi bütövlüyünün toxunulmazlığı. O, təqdim olunan doktrinanı demokratiya və azadlıq ideyalarının bütün dünyaya yaymaq mexanizminə çevrilməsinə çalışırdı. Çünki bilindiyi kimi, yalnız bərabərlər arasında sülh ən sabit sülhdür. Beləliklə, ümummilli lider Azərbaycan xalqının tükənməz və əzəmətli mənəvi sərvətini, multikulturalizmini yeni – siyasi müstəviyə köçürdü. Onun qoyduğu irsin üzərində tarixi mərhələlərdə Azərbaycan Respublikasında multikulturalizm siyasəti yeni üfüqlər qazanır. Ümummilli liderin seçdiyi siyasi, iqtisadi və sosial istiqamətlərin həqiqəti bu gün - qloballaşma proseslərinin xalqların və dövlətlərin sıx əməkdaşlığı və qarşılıqlı fəaliyyəti üçün mühüm stimul olduğu bir dövrdə getdikcə daha aydın görünür (İbragimova, 2015). Azərbaycan Respublikasında din-dövlət münasibətlərinin tənzimlənməsi istiqamətində hüquqi islahatların davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi" yaradılmışdır. Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra milli-dini dəyərlərimizin qorunmasında, İslam

dininə hörmətlə yanaşılması, dini inancların daha da möhkəmlənməsində böyük rol oynadı. Bunun əsas səbəblərindən biri Heydər Əliyevin sovet dövlətində rəhbər vəzifələrdə çalışarkən İslam dininə mənfi münasibət görməsi idi. Heydər Əliyevin Sovet İttifaqının rəhbəri seçilməsinə əsas maneələrdən biri onun müsəlman olması idi. Bütün bunlar Heydər Əliyevi milli-dini dəyərlərə daha da bağladı. Eyni zamanda o bilirdi ki, xalqın özünə inamının qaytarılması yalnız ölkədə islam dininin dirçəlişi ilə mümkündür. Heydər Əliyev həmişə İslamın mahiyyətini vurğulayır və hesab edirdi ki, bu, Azərbaycan xalqının həyatında mühüm rol oynayan mütərəqqi, qüdrətli bir dindir. Məhz İslam dəyərlərinə bağlılıq Azərbaycanda ruslaşdırma siyasətinə qarşı müqavimətə səbəb oldu. Milli sabitliyin əsas sütunları da İslamla bağlı idi. İslami ayinlərə riayət nisbətinin azalmasına baxmayaraq, Azərbaycan xalqı heç vaxt özünü İslamdan kənarda görməmişdir.

Heydər Əliyev 1993-cü ildə Təzəpir məscidində dindarlarla görüşlərinin birində İslamın mütərəqqi əhəmiyyətindən danışaraq siyasi normallaşmada əslində dini amilin əhəmiyyətinə vurğu edirdi (Əl-Fəlah, 2007). Heydər Əliyev İslam dininin bütün atributlarına həmişə hörmətlə yanaşır, başqalarına nümunə göstərirdi. Ayinlərdə həmişə dindarların yanında olub, xalqı dini bayramlar münasibətilə təbrik edib, onlara uğurlar arzulayırdı. Məsələn, 1993-cü il sentyabrın 5-də Məhəmməd peyğəmbərin mövlud günü münasibəti ilə Təzəpir məscidində dindarlara xitabən demişdir ki, Məhəmməd Peyğəmbərin (s.ə.s.) yaydığı İslam dini əsrlər boyu insanların həyatında böyük rol oynamışdır (Guseynov, 2024). Heydər Əliyev İslamı Azərbaycan xalqının milli-mənəvi sərvəti hesab edərək İslamın insanları təmizliyə, sağlamlığa çağırdığını vurğulayırdı. 1994-cü il avqustun 26-da Təzəpir məscidində keçirilən mərasimdə çıxış edən H.Əliyev İslam dininin tərbiyəvi əhəmiyyətindən danışmış, bununla da milli həməryliyin formalaşmasında dinin rolunu cəmiyyətin diqqətinə çatdırmışdır (Heydər Əliyevin Bakıda Təzəpir məscidində Mövlud bayramı münasibətilə keçirilən mərasimdəki nitqi, 1994). Tolleantlıq və multikultural dəyərlərin inkişafı baxımından Heydər Əliyevin milli azlıqlarla bağlı apardığı siyasət də ölkədə sabitliyin formalaşmasında ciddi rol oynadı. Heydər Əliyev həmişə qeyd edirdi ki, Azərbaycanın çoxmillətli olması onun sərvətidir. O, 1993-cü ilin oktyabrında çıxışında Azərbaycanın çoxmillətli ölkə olduğunu bir daha vurğuladı. Bu, respublikanın özünəməxsus xüsusiyyətidir. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq respublikanın bütün vətəndaşları bərabər hüquqlara malikdir və bundan sonra bütün vətəndaşların Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirakını təmin etmək üçün bütün hüquqlar təmin ediləcəkdir (Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi, 2024). Bütün bunlar siyasi və sosial sabitliyin formalaşdırılmasında

xüsusi rol oynayırdı. Çünki xarici güclərin milli azlıqlardan öz məqsədləri üçün istifadə etməsinin qarşısı alınırdı.

### 4. Heydər Əliyev Siyasətində Aqrar İstiqamət

Heydər Əliyevin xidmətləri sayəsində Azərbaycan inkişaf edən respublikalardan birinə çevrildi. Heydər Əliyev faktiki olaraq ölkəni siyasi, iqtisadi, hərbi və sosial xaosdan çıxartdı. O, Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimindəki çıxışlarının birində qeyd edirdi ki, biz bir tərəfdən öz işimizdə artıq yaradılmış potensialdan səmərəli istifadə etməliyik, ölkə bazar iqtisadiyyatına doğru irəliləyir. Bununla da Heydər Əliyev Azərbaycan iqtisadiyyatının inkişafına öz strateji baxışını ortaya qoyurdu.

Sovet İttifaqında mövcud olmuş inzibati iqtisadiyyat sistemi tədricən tənəzzülə uğradı, Azərbaycan iqtisadiyyatı böhran vəziyyətinə düşdü. Ölkəni bu vəziyyətdən çıxarmaq üçün ölkənin iqtisadi sabitliyini yeni əsaslarla bərpa edəcək silsilə islahatların aparılması məqsədəuyğun idi. Beynəlxalq təcrübəyə görə, ölkə iqtisadiyyatının inkişafının əsas elementi ölkədə milli iqtisadiyyatın inkişaf səviyyəsini xarakterizə edən aqrar sektordur. Azərbaycanın əsas vəzifəsi kənd təsərrüfatı sektorunu bu vəziyyətdən çıxarmaq idi, çünki 1991-1993-cü illərdə bu sahə tamamilə dağıldı və istehsal ən aşağı həddə düşdü. Nəticədə ulu öndər Heydər Əliyevin məqsədəuyğun, təşkilatçılıq və rəhbərliyin köməyi ilə dövləti son dərəcə qeyri-sabit vəziyyətdən çıxarmaq üçün tədbirlər təklif olundu. Kənd təsərrüfatının sürətli inkişafının əsas meyarları Heydər Əliyevin fikrincə, ölkənin təbii sərvətlərindən, yəni münbit torpağın özündən, mülayim iqlimdən düzgün istifadə idi.

Nəticədə, bu dövrdə ölkədə aqrar islahat fəal şəkildə həyata keçirilməyə başlandı. Aqrar sahədə islahatların aparılması təsadüfi deyildi, çünki aqrar sahə milli iqtisadiyyatın inkişaf səviyyəsinin əsas amili hesab olunurdu. Heydər Əliyev də öz çıxışlarında bunu dönə-dönə vurğulayırdı ki, biz artıq dövlətimizin aqrar sahədə və bütövlükdə iqtisadiyyatda siyasətini müəyyən etmişik. Bu, islahatlar yoludur. Mülkiyyətin özəlləşdirilməsi, özəl sektorun və bazar iqtisadiyyatının geniş inkişafı, insanların fəaliyyət azadlığının təmin edilməsi, sahibkarlığın inkişafına şərait yaradılması yoludur. Bu zaman köhnə iqtisadi sistem yeni istehsal münasibətləri ilə əvəz olundu, kənd təsərrüfatının idarə edilməsi bazar münasibətlərinə keçidin tələblərinə uyğunlaşdırıldı. Aqrar islahatlar kursuna Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasından start verildi və sonralar respublikanın bütün kənd təsərrüfatı sahəsini əhatə etdi.

Heydər Əliyev bütün sahələrdə olduğu kimi aqrar sahədə də dərin biliyə malik idi (Rzayev, 2023). Torpaq islahatı ilə başlanan aqrar islahatlar nəticəsində xüsusi mülkiyyətə əsaslanan yeni istehsal münasibətləri formalaşmış, torpaqlar kəndlilərin mülkiyyətinə verilmiş, müasir sahibkarlıq mühitinin formalaşmasına başlanmış, real həyat üçün zəruri şəraitin əsasları qoyulmuşdur. İslahatların əsas istiqaməti tamamilə yeni mülkiyyət formalarının, yeni münasibətlərin formalaşması, dövlət əmlakının özəlləşdirilməsi hesab olunurdu. Heydər Əliyev qeyd edirdi ki, Respublikanın bazar iqtisadiyyatına, azad iqtisadiyyata keçməsi üçün mülkiyyət formasının dəyişdirilməsi və özəlləşdirmənin aparılması zəruridir. 1993-cü ilin yanvarında Milli Məclis Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsi haqqında qanun qəbul etdi və bu, Heydər Əliyevin fikrincə, mülkiyyətin dövlətsizləşdirilməsi üçün hüquqi əsas rolunu oynadı.

1995-ci ildən kənd təsərrüfatında bazar münasibətlərinə keçid prosesinə əsas diqqət yetirilir. Bununla bağlı Heydər Əliyev "Aqrar islahatların əsasları haqqında", "Kolxoz və sovxozların islahatı haqqında" Azərbaycan Respublikasının qanunlarını, habelə "Torpaq islahatı haqqında" 16 iyul tarixli Azərbaycan Respublikasının Qanununu imzalamışdı. "Dövlət torpaq kadastrı, torpağın monitorinqi və yerquruluşu haqqında" Azərbaycan Respublikasının 22 dekabr 1998-ci il tarixli Qanunu, "Torpaqların icarəsi haqqında" 12 mart 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu da bu sahədə mühüm rol oynamışdı. Azərbaycan Respublikasının 25 iyun 1999-cu il tarixli "Azərbaycan Respublikasının Torpaq Məcəlləsi", "Torpaq bazarı haqqında" Azərbaycan Respublikasının 7 may 1999-cu il tarixli Qanunu, o cümlədən 52-dən çox fərman, qanun və digər normativ hüquqi aktlar torpaq islahatının həyata keçirilməsi üçün əsas kimi çıxış etmişdi (İbrahimov, 2023). Heydər Əliyevin 1993-2003-cü illərdə hakimiyyətdə olduğu dövrdə Azərbaycanda aqrar sahədə islahatlar aparıldı ki, bu da aqrar sahənin formalaşma sürətini artırdı. Bu zaman torpağa münasibətdə tarixi ədalət bərpa olundu, torpaq kəndlilərin ixtiyarına pulsuz verildi, gəlirli kənd təsərrüfatı təsərrüfatının inkişafı üçün lazımi şərait yarandı. Bundan əlavə, ən əkinçiliyə yararlı və keyfiyyətli ərazilər özəlləşdirilməyə başlandı və yaşayış yerindən asılı olmayaraq respublika ərazisində yaşayan bütün şəhər sakinlərinə torpaqdan istifadə və icarə hüququ verildi, eyni zamanda, hər bir vətəndaşa Azərbaycan torpaqlarının alqı-satqısı, torpaqla bağlı müqavilələr və əqdlər bağlamaq hüququ verildi.

**Nəticə**

Beləliklə, Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, ideoloji, iqtisadi əsaslarını yaratmış, xalqın müstəqil güclü dövlət sahibi olmaq arzusunu reallaşdırmışdır. Ümummilli lider Heydər Əliyev xalqın ruhunu dirçəltmək, dövləti quruculuq zirvələrinə

yüksəltmək üçün müstəqil Azərbaycanın təsis edilməsi istiqamətində bütün sahələrdə sistemli bir fəaliyyət ortaya qoymuşdur. Bu gün Azərbaycan faydalı beynəlxalq iqtisadi tərəfdaşlıqlar üçün mühüm strateji tərəfdaşdır, qlobal məkanda mədəniyyətlərarası əlaqələrin inkişafında qəbul edilmiş aktordur. Heydər Əliyev Azərbaycanda daxili siyasi sabitliyə nail olmaqla yanaşı, həm də ölkənin iqtisadi müstəqilliyinin əsasını qoydu. Dövlət əmlakının özəlləşdirilməsi azad bazar rəqabəti, özəl sahibkarlıq prinsiplərinin bərqərar olmasına, eləcə də milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasına, insanların şüurunda və həyat tərzində əsaslı dəyişikliklərə səbəb oldu. Heydər Əliyev Azərbaycanın möhkəm dövlətçilik xəttini, siyasi və iqtisadi əsaslarını formalaşdırmaqla yanaşı, azərbaycançılıq məfkurəsinin milli dirçəliş və inkişafının əsasına çevrilmiş ideyanın banisidir. Məhz bu dövrdə atılan ilkin addımlar bir sıra sahələrdə sabitliyin təmin edilməsində xüsusi rol oynadı. Bu ilk növbədə atəşkəs rejiminin yaranması ilə bağlı idi. Heydər Əliyev atəşkəs rejimini dövründə ölkədə bir sıra işlərin həyata keçirilməsi ilə Azərbaycan dövlətinin əsaslarını qurdu. Neft strategiyası ölkənin iqtisadi sabitlik təməllərini formalaşdırdı. Multikultural dəyərlərin dövlət siyasətinə çevrilməsi çox millətli Azərbaycanın konsalidasiyasına səbəb oldu. Gənclər siyasətində uğurlar yeni nəslin dövlətə sahib olma şüuruna ciddi təsir etdi. Aqrar islahatların həyata keçirilməsi sosial vəziyyətin yaxşılaşmasına gətirib çıxardı. Eyni zamanda, daxili siyasi sabitlik bərpa edildi, qanunsuz hərbi birləşmələr isə ləğv edildi.

## Ədəbiyyat Siyahısı

Aliyev, İ. (2007). *Ben Azerbaycan'ıma inanıyorum.* Azerbaycan.

Andriyanov, B. I. & Miralamov G. F. O. (2007). *Il'kham Aliyev.* Munitsipalitet Gvarpdi.

Aran, S. (23 noyabr 2023). Heydər Əliyev və Multikulturalizm Siyasəti. *525-ci qəzet, 7.*

Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqi, 2024, http://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf.

Bəhramov, C. (9 Fevral 2019). Milli neft sənayemiz dövlət müstəqilliyinin bərpasının ilk illərində. *İki sahil, s. 13.*

Əl-Fəlah, A. A. (2007). *Heydər Əliyev və Milli-Mənəvi Dəyərlər.* Qismət.

Əliyev, N. (2013). *Əbədi həyat fəlsəfəsi.* Elm və tehsil.

Guseynov, A. (2024). *Nekotoryye kriticheskiye zamechaniya i traditsionnyye zamechaniya ob obshchem sostoyanii islama i islamofobii v Azerbaydzhane (XX sezon*. prodolzheniye v XXI sezone). AVE Print.

Heydər Əliyevin Bakıda Təzəpir məscidində Mövlud bayramı münasibətilə keçirilən mərasimdəki nitqi. (27 avqust 1994). *Azərbaycan qəzeti.*

İbragimova, D. (2015). Azerbaydzhanskiy mul'tikul'turalizm: aktsii, tendentsii, perspektivy. *Gosudarstvennoye upravleniye,* 4, 213-218.

İbrahimov, E. (10 May 2023). Heydər Əliyev və Aqrar Siyasət. *Azərbaycan, s. 9.*

*Milli dövlətçilik sınaq qarşısında*. (2002). İkinci hissə*:* Azərbaycan.

Rzayev, T. (2 Mart 2023). Heydər Əliyevin Aqrar Siyasət Xətti Davamlı İnkişafdadır. *Azərbaycan, s.7.*

Yaqubzadə, M. (16 Fevral 2024). Azərbaycan neftinin dünya marşrutu. *Xalq qəzeti, s. 9.*

Yusifzadə, X. (10 May 2023). Heydər Əliyevin Neft Strategiyasi. *Respublika, s. 11.*